3
2020

İSSN-0207-4710

# GÖYƏRÇİN





# PİS İŞTAH

*Əfqan nağılı*

Kasıb bir şeyxin evinə qonaq gəlir. Yemək vaxtı çatanda ev sahibi gedib dörd kökə gətirir və oğlanın qarşısına qoyur. Özü gedir ki, nəsə yenə başqa bir şey tapıb gətirsin. Şeyx əlində çörək geri qayıdanda görür ki, qonaq dörd kökənin dördünü də yeyib. Əlindəki çörəyi süfrənin üstünə qoyub, daxmasına qayıdır ki, yenə kökə gətirsin. Geri dönəndə görür ki, çörəkdən bir tikə də qalmayıb. Bir söz demədən yenə gətirdiyi dörd kökəni süfrəyə qoyub, çörək gətirməyə gedir. O, geri qayıdınca üzlü qonaq o biri kökələri də yeyir. Bu münvalla şeyx on dəfə komasına gedib-gəlməli olur. Səyyah onun evindəki bütün ehtiyat kökələri və çörəyi yeyib qurtarır.

Axır ki, şeyx qarınqulu səyyahdan soruşur:

-Ay oğlan, Allahın nəzərləri üstündən əskik olmasın. De görüm səfərin hansı tərəfdədir?

Səyyah gedəcəyi kəndin və qonağı olacağı hörmətli adamın adını söyləyir.

Şeyx soruşur:

-De görüm məqsədin nədi? Nə üçün o kəndə və o hörmətli cənabın yanına gedirsən?

-Mən eşitmişəm ki, yanına getdiyim adam çox tanınmış bir loğmandır. Gedirəm ki, məni müalicə eləsin.

Şeyx təəccüblə üzündə heç bir xəstəlik əlaməti olmayan oğlandan soruşur:

-Sənin xəstəliyin nədir? Nə üçün həkimin yanına gedirsən?

-Mənim iştahım çox pisdir, doyunca yeyə bilmirəm. Gedirəm ki, həkim mənə iştah artıran dərman versin.

Şeyx mənalı-mənalı gülümsünüb deyir:

-Allah işlərini avand eləsin! Sənə uğurlar diləyirəm. Ancaq səndən acizanə bir xahişim var.

-Nə xahiş, cənab?

*-Xahiş eləyirəm ki, müalicə olunandan sonra bu yolla geri qayıtma, ayrı yolla evinə dön!*





# SƏRÇƏ VƏ TOYUQ

*Əfqan nağılı*



Bir dəfə necə oldusa, sərçə ilə toyuq söhbət eləyə bildilər. Sərçə daş hasarın üstünə qonmuşdu, toyuq isə hasarın içində eşələnirdi.

Sərçə ona baxıb dedi:

-Ay yazıq, sən hasarın içində yaşamaqdan, ora-bura eşələnməkdən bezmirsənmi? O boyda qanadların var, niyə uçmağı öyrənmirsən?

Söz toyuğun xətrinə dəydi:

-Yox, mən uçmağı bacarıram. - Sonra o, qanadlarını çırpıb uçdu və sərçənin yanına qondu. Sonra sərçəyə dedi:

-Ora-bura tullanmaq, uçmaq səni bezdirmir? Gəl sən də rahatca bizimlə hində yaşa. Sahibimiz dən səpəndə sən də rahatca dənlə. Düzdür, səni kəsib ətindən şorba da bişirə bilərlər. Ancaq bu həmişə olmur ki, cəmi-cümlətanı bircə dəfə…

Elə bu zaman güclü külək əsdi. Toyuq özünü yuxarıda saxlaya bilməyib, yenə hasarın içinə düşdü.

Sərçə dedi:

-Düzdür, sən məndən böyüksən, güclüsən. Ancaq həyatın mənasını yalnız yeməkdə görürsən. Mən isə ancaq qanadlarıma güvənirəm və istədiyim yerə uça bilmək azadlığını heç nəyə dəyişmərəm.





*Tərcümə edəni: R.Y.Əliyev*